Azərbaycan TEXNİKİ Universiteti




# Keyfiyyət Təminatı Bələdçisi


**Keyfiyyətin Təminatı Şöbəsi**

Email: kts.sobesi@gmail.com

Website: www.aztu.edu.az

# MÜNDƏRİCAT


Keyfiyyət Təminatı Bələdçisi nədir? ... 3
Keyfiyyət Mexanizmi ... 4
Vizyon ... 4
Keyfiyyət İdarəetmə Sistemi (KİS) ... 6
PDCA nədir? ... 7
Azərbaycan Texniki Universitetində PDCA-ın rolu ... 8
PDCA mərhələləri ... 9
Keyfiyyət İdarəetmə Sisteminin əsas prinsipləri ... 10
Sənədləşdirilmiş Məlumatların İdarə Edilməsi və Saxlanılması ... 11
Liderlik və Öhdəlik ... 12
AzTU-nun Maraqlı Tərəfləri və Məmnuniyyət Strategiyası ... 13
“Beş Niyə” üsulu nədir? ... 14
Qərar Qəbul Etmə Prosesinin mərhələləri ... 16
Məlumatlılıq və Kommunikasiya ... 17
Performansın Dəyərləndirilməsi və Keyfiyyətin Təhlili ... 19
Təkmilləşmə (AzTU kontekstində) ... 20
Keyfiyyət Təminatı alətləri və İdarəetmə mexanizmləri ... 22
AzTU üçün Xüsusi Keyfiyyət Təminatı Planı ... 24
Keyfiyyət Mədəniyyəti ... 26
GZİT (SWOT) Analizi və Risk dəyərləndirməsi ... 29
Keyfiyyət Terminləri Cədvəli ... 32

## GİRİŞ: KEYFİYYƏT TƏMİNATI BƏLƏDÇİSİNİN MAHİYYƏTİ

Keyfiyyət Təminatı Bələdçisi Azərbaycan Texniki Universitetində (AzTU) akademik standartların qorunmasını, tədris keyfiyyətinin təmin olunmasını və davamlı təkmilləşdirilməsini dəstəkləyən sistemin əsas istiqamətlərini müəyyənləşdirən sənəddir. Bu bələdçi, universitetin fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunu təmin etməklə yanaşı, tələbə-mərkəzli yanaşmanı təşviq etməyə və institusional inkişaf üçün vahid yol xəritəsi təqdim etməyə xidmət edir.

Universitetdə tətbiq edilən **Keyfiyyət Menecment Sistemi (KMS)** bütün struktur vahidlərinin fəaliyyətini əlaqələndirərək, tədrisin və idarəetmənin effektivliyini artırmaq, xidmət proseslərini təkmilləşdirmək və davamlı inkişafı təmin etmək üçün mühüm mexanizm rolunu oynayır.

Bu bələdçi, AzTU-nun yaxın və uzaq strateji planları ilə sıx əlaqəlidir və ali təhsil müəssisəsinin gələcəyə baxışını əks etdirir. Onun əsas məqsədləri aşağıdakılardır:

- Tədris və tədqiqat keyfiyyətinin yüksəldilməsi;
- Keyfiyyət menecment sisteminin prinsiplərini əks etdirmək və inkişaf etdirmək;
- Keyfiyyətin idarə olunması sahəsində fəaliyyətlərə nəzarət mexanizmlərini müəyyənləşdirmək;
- Düzəldici və qabaqlayıcı tədbirlərin həyata keçirilməsini təmin etmək.

Hazırkı sənəd, keyfiyyət təminatı proseslərinin sənədləşdirilmiş formada sistemli şəkildə tətbiq olunmasını və onların universitetin ümumi idarəetmə strukturuna inteqrasiyasını əks etdirir.

# KEYFİYYƏT MEXANİZMİ

Keyfiyyət təminatı mexanizmləri təhsilin, tədqiqatların və idarəetmənin keyfiyyətini təmin etmək üçün həyata keçirilən siyasət və proseslər toplusudur.




**Vizyon**

***"Dünyanın ən qabaqcıl texniki universietlərindən biri olmaqla, texnologiya və mühəndislik sahəsində mükəmməllik və innovsiyalara əsaslanaraq qlobal elm və sənaye inkişafına rəhbərlik etməkdir"***

## NORMATİV SƏNƏDLƏR

**Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu:**
**https://e-qanun.az/framework/18343**
**Akkreditasiya və Sertifikatlaşdırma Qanunvericiliyi:**
**https://e-qanun.az/framework/28108**
**Ali Təhsilin Dövlət Standartları:**
**https://e-qanun.az/framework/19531**
**Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları**
**https://e-qanun.az/framework/52566**
**Azərbaycan Texniki Universitetinin Nizamnaməsi**
**https://nk.gov.az/az/senedler/qerarlar/azerbaycan-texniki-universitetinin-yeniden-teskili-7977**
**Azərbaycan Texniki Universitetinin Strateji İnkişaf Planı**
**https://www.aztu.edu.az/web_admin/upload/files/aztu.edu.az/menus/12-2024/S%C4%B0P%202024-2030_AZ.pdf**
**Azərbaycan Texniki Universitetinin Risklərin İdarəedilməsi Planı**
**https://www.aztu.edu.az/web_admin/upload/files/aztu.edu.az/menus/12-2024/Riskl%C9%99rin_idar%C9%99edilm%C9%99si_plan%C4%B1_Az.pdf**
**Keyfiyyətin Təminatı Şöbəsinin Əsasnaməsi**
**https://drive.google.com/file/d/1F3LTa7sA4r6Qw5o31Ir1gF1fu4OLknJn/view**
**Keyfiyyətin Təminatı Siyasəti**
**https://drive.google.com/file/d/1t1jxiMCe9AvqhFCPgrSjsa-Bqizatt8r/view**

# KEYFİYYƏT İDARƏETMƏ SİSTEMİ (KİS)

Azərbaycan Texniki Universitetində (AzTU) **Keyfiyyət İdarəetmə Sistemi (KİS)**, universitetin strateji hədəflərinə uyğun olaraq akademik və inzibati fəaliyyətlərin yüksək keyfiyyət standartlarına cavab verməsini təmin edən sistematik yanaşmadır. Bu sistem keyfiyyətin **planlaşdırılması, icrası, nəzarəti və təkmilləşdirilməsi** kimi əsas komponentlərdən ibarətdir və beynəlxalq standartlara uyğunluğun təmin edilməsinə xidmət edir.

## *Keyfiyyətin Planlaşdırılması*

Keyfiyyətin planlaşdırılması universitetin **keyfiyyət siyasətini və məqsədlərini** müəyyən edir və bu məqsədlərə çatmaq üçün tələb olunan prosesləri, resursları və tədbirləri təyin edir. Bu mərhələ tədris və xidmətlərin **tələbə və maraqlı tərəflərin tələblərinə və normativ hüquqi tələblərə** uyğunluğunu təmin etməyə yönəlmişdir.

## *Keyfiyyətə Nəzarət*

Keyfiyyətə nəzarət, universitetin akademik və inzibati proseslərinin **mütəmadi izlənilməsi və qiymətləndirilməsi** üçün həyata keçirilir. Bu mərhələdə **monitorinqlər, yoxlamalar, testlər və statistik nəzarət metodları** tətbiq edilir. Proseslərdə hər hansı uyğunsuzluqlar aşkar edildikdə, onlar operativ şəkildə analiz edilir və müvafiq düzəldici tədbirlər görülür.

## *Keyfiyyətin Təminatı*

Keyfiyyətin təminatı, AzTU-nun qəbul etdiyi keyfiyyət standartlarının sistemli və davamlı şəkildə yerinə yetirilməsini təmin edən fəaliyyətlərdən ibarətdir. Burada əsas diqqət **proseslərin effektiv idarə olunmasına** yönəldilir ki, nəticədə **tədris, tədqiqat və inzibati xidmətlər** müəyyən edilmiş keyfiyyət tələblərinə uyğun olsun.

## *Keyfiyyətin Təkmilləşdirilməsi*

Davamlı təkmilləşdirmə, KİS-in əsas prinsiplərindən biri olub, proseslərin **səmərəliliyinin artırılması, resursların optimal idarə olunması və xidmətlərin keyfiyyətinin yüksəldilməsi** məqsədilə həyata keçirilir. **PDCA (Planla-İcra et-Yoxla-Təkmilləşdir)** kimi metodlar universitetdə **keyfiyyətin davamlı inkişafını** təmin etmək üçün istifadə olunur.

## Keyfiyyət Təminatında PDCA dövrü

**(Planla-İcra et-Yoxla-Təkmilləşdir)**, keyfiyyət idarəetmə sistemlərində və proseslərin davamlı təkmilləşdirilməsində istifadə olunan əsas metodologiyadır. Bu yanaşma,

**W. Edwards Deming** tərəfindən təkmilləşdirilmiş və təşkilatların iş proseslərini optimallaşdırmaq üçün geniş şəkildə tətbiq edilmişdir.



# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNDƏ PDCA-NIN ROLU

**Davamlı inkişaf**

PDCA, AzTU-da tədris, elmi tədqiqat və idarəetmə fəaliyyətlərinin davamlı təkmilləşdirilməsini təmin edir.

**Keyfiyyət təminatı**

Tədris proqramlarının və inzibati proseslərin müntəzəm olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi ilə yüksək keyfiyyət standartları qorunur.

**Strateji idarəetmə**

Universitetin strateji hədəflərinə çatmaq üçün PDCA-nın mərhələləri ardıcıl şəkildə tətbiq olunaraq inkişaf istiqamətləri müəyyən edilir.

**Şəffaflıq və hesabatlılıq**

Proseslərin müntəzəm olaraq yoxlanılması və nəticələrin ictimaiyyətə təqdim edilməsi universitetin fəaliyyətində şəffaflığı təmin edir.

| PDCA mərhələləri | İzahı | Görüləcək işlər |
|---|---|---|
| **Planla (Plan)** | Bu mərhələdə məqsədlər müəyyənləşdirilir, problemlər təhlil edilir və onları aradan qaldırmaq üçün lazımi tədbirlər planlaşdırılır. Ali təhsil müəssisəsində bu mərhələ, akademik və inzibati fəaliyyətlərin keyfiyyətini artırmaq üçün strategiyaların və hədəflərin müəyyən edilməsini əhatə edir. | Mövcud vəziyyətin analizi;<br>Problemlərin və ehtiyacların müəyyənləşdirilməsi;<br>Keyfiyyət məqsədlərinin və göstəricilərinin (KPI) müəyyən edilməsi;<br>Tələb olunan resursların və fəaliyyətlərin planlaşdırılması. |
| **İcra et (Do)** | Bu mərhələ planın həyata keçirilməsini əhatə edir. Ali təhsil müəssisəsində bu, müəyyən edilmiş strategiyaların və fəaliyyətlərin real tətbiqini nəzərdə tutur. | Tədris prosesində və idarəetmə işlərində təkmilləşdirilmiş yanaşmaların tətbiqi;<br>Müəyyən olunmuş plan üzrə pilot layihələrin icrası;<br>Tələbə və işçi heyətinin prosesə cəlb edilməsi. |
| **Yoxla (Check)** | Bu mərhələdə həyata keçirilən işlərin nəticələri analiz edilir və onların keyfiyyət məqsədlərinə uyğun olub-olmadığı qiymətləndirilir. Ali təhsil müəssisəsində bu, tədris və idarəetmə fəaliyyətlərinin qiymətləndirilməsi ilə bağlıdır. | Keyfiyyət göstəricilərinin müqayisəsi və analiz edilməsi;<br>Uyğunsuzluqların və problemlərin müəyyən edilməsi;<br>Tələbə və müəllimlərin rəylərinin toplanması və təhlili. |
| **Təkmilləşdir (Act)** | Bu mərhələdə yoxlama mərhələsində aşkar edilmiş uyğunsuzluqlar aradan qaldırılır və sistem daha da təkmilləşdirilir. Bu, davamlı inkişafın təmin edilməsi üçün vacibdir. | Uyğunsuzluqların düzəldilməsi üçün düzəldici tədbirlərin həyata keçirilməsi;<br>Yeni metodların və təkmilləşdirmələrin tətbiqi;<br>Nəticələrdən əldə edilən təcrübənin gələcək planlama mərhələlərində istifadə edilməsi. |

## KEYFİYYƏT İDARƏETMƏ SİSTEMİNİN ƏSAS PRİNSİPLƏRİ

AzTU-da KİS aşağıdakı əsas **prinsiplərə** əsaslanır:

- **Tələbə-mərkəzli yanaşma:** Universitetin əsas benefisiarları kimi tələbələrin ehtiyac və gözləntilərinə uyğun yüksək keyfiyyətli təhsil və xidmətlər təqdim etmək;
- **Rəhbərliyin aparıcı rolu:** Universitet rəhbərliyi keyfiyyət idarəetmə proseslərinə strateji səviyyədə dəstək göstərir və sistemin effektivliyini təmin edir;
- **Bütün əməkdaşların iştirakı:** KİS-in tətbiqi və inkişafı universitetin bütün akademik və inzibati heyətinin aktiv iştirakını tələb edir;
- **Proses yanaşması:** Universitetin fəaliyyətini qarşılıqlı əlaqəli və təsir edən proseslər toplusu kimi idarə etmək;
- **Proaktiv keyfiyyət idarəetməsi:** Uyğunsuzluqların yalnız aradan qaldırılması deyil, onların yaranmasının qarşısının alınmasına xüsusi diqqət yetirmək;
- **Davamlı təkmilləşmə:** Universitetin KİS-i müntəzəm olaraq qiymətləndirilir və beynəlxalq standartlara uyğun təkmilləşdirilir;
- **Faktlara əsaslanan qərarvermə:** Bütün qərarlar dəqiq və obyektiv məlumatlara əsaslanaraq qəbul edilir.

# SƏNƏDLƏŞDİRİLMİŞ MƏLUMATLARIN İDARƏ EDİLMƏSİ VƏ SAXLANILMASI

AzTU-da KT-na dair bütün sənədlərin sistematik şəkildə idarə olunmasını təmin etmək məqsədilə **"Sənədlərin və qeydlərin idarə olunması"** proseduru (AZTU-KT-.(S)-0-) tətbiq edilir. Sənədlər aşağıdakı **səviyyələrə** bölünür:

1. **Ali səviyyə:** Keyfiyyət siyasəti və strateji hədəflər; (AZTU-KT-A-0-)
2. **Birinci səviyyə:** Keyfiyyət rəhbərliyi sənədləri; (AZTU-KT-B-0-)
3. **İkinci səviyyə:** KİS-in sənədləşmiş prosedurları, normativ aktlar, metodik təlimatlar və vəzifə təlimatları; (AZTU-KT-C-0-)
4. **Üçüncü səviyyə:** Keyfiyyət göstəricilərinin monitorinqini əks etdirən formalar, işçi təlimatlar və digər texniki sənədlər; (AZTU-KT-D-0-)
5. **Dördüncü səviyyə:** Keyfiyyət təminatı ilə bağlı sənədlərin xarici dildə nüsxələri. (AZTU-KT-E-0-)

Bütün sənədlər **dövri olaraq yenilənir, arxivləşdirilir və əlçatanlığı təmin edilir**, bu da universitetin fəaliyyətlərinin şəffaflığını, hesabatlılığını və davamlı inkişafını dəstəkləyir.

# LİDERLİK VƏ ÖHDƏLİK

## Ümumi müddəalar

Azərbaycan Texniki Universitetində (AzTU) **Keyfiyyət Təminatı,** rəhbərliyin **fasiləsiz, şəxsi və strateji iştirakını tələb** edən şəkildə qurulmuşdur. Rektor və universitet rəhbərliyi keyfiyyət məsələlərini **AzTU-nun strateji hədəflərinə** daxil edir və bu istiqamətdə **maliyyələşdirmə, insan resurslarının inkişafı və motivasiya tədbirləri** vasitəsilə keyfiyyət mədəniyyətini gücləndirir.

Rektor və rəhbərlik, **ümumi iclaslarda, çıxışlarda və rəsmi tədbirlərdə** keyfiyyətin önəmini vurğulayır və **təhsil, tədqiqat və idarəetmə proseslərində** keyfiyyətin əsas prioritetlərdən biri olduğunu nümayiş etdirir.

Rəhbərliyin **Keyfiyyət İdarəetmə Sistemində** əsas öhdəlikləri aşağıdakılardır:

- **Keyfiyyət siyasətinin və strateji hədəflərin müəyyənləşdirilməsi;**
- **Tədris, tədqiqat və inzibati sahələrdə əməkdaşlar üçün etibarlı və motivasiyaedici mühitin yaradılması;**
- **KİS-in dəyəri və funksionallığı haqqında bütün personalın məlumatlandırılması;**
- **KİS-in səmərəliliyinə dair daimi və obyektiv monitorinq aparılması;**
- **Tədris və idarəetmə proseslərinin keyfiyyətə təsir edən əsas amillərinin müəyyən edilməsi;**
- **Tələbə və digər maraqlı tərəflərin gözləntilərinin və tələblərinin analiz edilməsi** və keyfiyyətin artırılması üçün təkmilləşdirmə tədbirlərinin həyata keçirilməsi;
- **KİS-in inkişafı və effektiv fəaliyyətinin planlaşdırılması;**
- **Strateji məqsədlərə nail olmaq üçün təşkilati strukturun və resurs təminatının optimallaşdırılması.**

## 🎯 AzTU-nun Maraqlı Tərəfləri və Məmnuniyyət Strategiyası

```
                     📌 AzTU
                        |
        -----------------------------------
        |                               |
  Xarici Tərəflər                 Daxili Tərəflər
        |                               |
  Tələbələr, dövlət              Akademik və inzibati heyət
qurumları, sənaye partnyorları   Daxili proses istifadəçiləri
        |
Məmnuniyyət strategiyası ilə inkişaf
```

🛠 **Xarici maraqlı tərəflər:**

- 🎓 **Tələbələr və valideynlər** — əsas benefisiarlar
- 🏢 **Dövlət və özəl qurumlar** — potensial işəgötürənlər, tərəfdaşlar
- 🔬 **Elmi və sənaye tərəfdaşları** — innovasiya və tədqiqat layihələri üzrə əməkdaşlar
- ✅ **Standartlaşdırma və akkreditasiya qurumları** — universitetin keyfiyyət göstəricilərini qiymətləndirən qurumlar

🏫 **Daxili maraqlı tərəflər:**

- 👩 🏫 **Akademik və inzibati heyət** — tədris və idarəetmə proseslərinin əsas iştirakçıları
- 🔧 **Daxili proses istifadəçiləri** — universitetin xidmətlərindən birbaşa təsirlənən əməkdaşlar və tələbələr

### 🎯 *Məmnuniyyətin artırılması üçün əsas addımlar*

💠 **Tələbə və əməkdaş sorğuları** – mütəmadi olaraq keçirilən məmnuniyyət ölçmələri
💠 **Gözləntilərin araşdırılması** – tərəflərin tələblərinin sistematik təhlili
💠 **İşçi heyətin motivasiyasının qiymətləndirilməsi** – inkişaf ehtiyaclarının müəyyənləşdirilməsi
💠 **Rəhbərliyin qərarverməsində iştirak** – maraqlı tərəflərin rəylərinin strateji qərarlarda nəzərə alınması

## "BEŞ NİYƏ" ÜSULU NƏDİR?

**Beş Niyə (Five Whys)** metodu statistik olmayan təhlillər arasında ən güclü qiymətləndirmə üsullarından biridir. O, gizli və ya aydın olmayan problemləri aşkara çıxarmağa və onların kök səbəbini izləməyə imkan verir. Üsul çox sadədir və təsirli işləyir.




**"Beş niyə" metodunun üstünlükləri**

- Problemin kök səbəbini müəyyən etməyə kömək edir;
- Bir prosesin bir neçə ardıcıl problemə səbəb ola biləcəyini anlamağa şərait yaradır;
- Müxtəlif kök səbəblər arasındakı əlaqəni təyin edir;
- Mürəkkəb qiymətləndirmə texnikalarına ehtiyac olmadan yüksək effektivlik təmin edir.

## NÜMUNƏ: ALİ TƏHSİLƏ KEYFİYYƏT PROBLEMİ






**QEYD:**

- ✓ Səbəblərlə simptomları və ya təsir edən amilləri fərqləndirin
- ✓ Düzgün cavabın verildiyinə əmin olmaq üçün geriyə doğru işləyin ("Niyə" sualına cavab + "və buna görə də" + həmin suala uyğun müəyyən edilmiş problem)
- ✓ Cavabları daha ətraflı bölməkdən çəkinməyin – nə qədər ətraflı olarsa, bir o qədər yaxşıdır
- ✓ Cavablar həmişə fakt və məlumatlara əsaslanmalıdır
- ✓ Prosesləri qiymətləndirin, insanları yox

# Qərar qəbul etmə prosesinin mərhələləri:

| Mərhələ | Təsvir |
|---|---|
| **1. Məqsədin müəyyən edilməsi** | Məqsədin və qərar qəbul etmə prosesinin əsas məqsədinin aydın şəkildə müəyyən edilməsi. |
| **2. Məlumat toplanması** | Qərar qəbul etmə üçün lazım olan məlumatların toplanması. |
| **3. Məlumatın hazırlanması** | Toplanan məlumatların təhlil üçün uyğun formata salınması və strukturlaşdırılması. |
| **4. Məlumatın vizuallaşdırılması** | Məlumatların qrafiklər, cədvəllər və diaqramlarla daha asan anlaşılmasını təmin etmək. |
| **5. Məlumat təhlili və müzakirəsi** | Toplanan və vizuallaşdırılmış məlumatların təhlil edilməsi və nəticələrin müzakirəsi. |
| **6. Mümkün qərarların müqayisəsi** | Fərqli qərar variantlarının qiymətləndirilməsi və onların müsbət/mənfi tərəflərinin müqayisəsi. |
| **7. Qərarların icrası** | Seçilmiş qərarın həyata keçirilməsi üçün resursların ayrılması və fəaliyyət planının tərtibi. |
| **8. Monitorinq və təkmilləşdirmə** | Qərarın tətbiqi sonrası nəticələrin izlənməsi və ehtiyac olduqda düzəlişlər edilməsi. |

# MƏLUMATLILIQ VƏ KOMMUNİKASİYA

## *Məlumatlılıq*

Azərbaycan Texniki Universitetində (AzTU) **bütün akademik və inzibati heyət** keyfiyyət siyasəti, strateji hədəflər və keyfiyyət idarəetmə prosesləri barədə mütəmadi olaraq məlumatlandırılır. Universitetdə **daxili informasiya mübadiləsi** müxtəlif struktur bölmələri arasında **Keyfiyyət İdarəetmə Sistemi (KİS)** çərçivəsində **effektivliyi təmin etmək məqsədilə** təşkil olunmuşdur.

Bu sistem **hər bir əməkdaşın proseslərdə aktiv iştirakını təmin edir,** onların fəaliyyətini təkmilləşdirir və **universitetin keyfiyyət hədəflərinə nail olunmasına töhfə verir.**

AzTU-da daxili məlumat axını aşağıdakı iki istiqamətdə həyata keçirilir:

- **"Yuxarıdan aşağıya doğru"** – Rektor, prorektorlar və digər ali rəhbərlikdən struktur bölmə rəhbərləri vasitəsilə bütün əməkdaşlara məlumat ötürülməsi;
- **"Aşağıdan yuxarıya doğru"** – İşçilərdən şöbə və fakültə rəhbərləri vasitəsilə universitet rəhbərliyinə geribildirim verilməsi.

Daxili məlumatlandırma tədbirləri:

- Rektor və ali rəhbərlik tərəfindən **departament rəhbərlərinin iclaslarında keyfiyyət sahəsində nailiyyətlər və inkişaf planlarının müzakirəsi**;
- **Tədris və tədqiqat layihələrinə dair "Keyfiyyət Planı"nın** aidiyyəti üzrə şöbələrdə təqdim edilməsi və işıqlandırılması;
- **Fakültə və departament rəhbərlərinin** KİS-in tətbiqi ilə bağlı mütəmadi toplantılar keçirməsi;
- **Personalın keyfiyyət prosesləri barədə məlumatlandırılması** və onların təkliflərinin müzakirəyə çıxarılması;
- **Tələbə və digər maraqlı tərəflərin universitetin xidmətləri barədə fikirlərinin toplanması və təhlil edilməsi.**

## *Əlaqə (Kommunikasiya)*

AzTU-da **Keyfiyyət İdarəetmə Sistemi (KİS)** çərçivəsində keyfiyyətin təmin edilməsi üçün **daxili və xarici kommunikasiya fasiləsiz və tam şəkildə təmin olunmalıdır.** Universitetdə **kommunikasiya prosesləri** həm daxili struktur bölmələri arasında, həm də universitetin xarici tərəfdaşları ilə **açıq və şəffaf informasiya mübadiləsi** əsasında qurulmuşdur.

Bu məqsədlə aşağıdakı **kommunikasiya vasitələrindən istifadə olunur**:

- **Universitetdaxili və xarici yazışmalar** – rəsmi sənədlər, protokollar və məktublar;
- **Elektron poçt sistemi** – operativ məlumat ötürülməsi və işçi yazışmalar;
- **Telefon rabitəsi** – təcili və operativ əlaqə üçün;
- **Toplantılar və iclaslar** – rəhbərlik və struktur bölmələri arasında mütəmadi müzakirələrin təşkili;

- **Üzbəüz görüşlər** – keyfiyyət məsələləri üzrə işçi heyət, tələbələr və rəhbərlik arasında müzakirələr;
- **Daxili təlimlər və seminarlar** – KİS çərçivəsində əməkdaşların bilik və bacarıqlarının artırılması məqsədilə;
- **Sosial şəbəkələr və rəsmi veb-sayt** – universitetin keyfiyyət siyasəti və digər mühüm məlumatların ictimaiyyətə çatdırılması üçün;
- **Tələbə və işçi sorğuları** – universitetin xidmət və fəaliyyətinin keyfiyyətini qiymətləndirmək üçün.

Bu yanaşma AzTU-da **açıq, şəffaf və effektiv kommunikasiya** mühitini təmin edir və universitetin **strateji inkişaf məqsədlərinə uyğun olaraq keyfiyyət standartlarına riayət etməsinə töhfə verir**.

## PERFORMANSIN DƏYƏRLƏNDİRİLMƏSİ VƏ KEYFİYYƏTİN TƏHLİLİ

**Monitorinq, ölçmə, analiz və qiymətləndirmə**
AzTU-da Keyfiyyət İdarəetmə Sistemi (KİS) çərçivəsində akademik və inzibati fəaliyyətlərin qiymətləndirilməsi üçün mütəmadi monitorinq, analiz və dəyərləndirmə aparılır. Qiymətləndirmə nəticələri əsasında inkişaf və düzəldici tədbirlər həyata keçirilir.

- **Maraqlı tərəf məmnuniyyətinin ölçülməsi**: Müəllim və tələbələrin rəy və gözləntiləri toplanaraq təhlil edilir.
- **Keyfiyyət proseslərinin izlənməsi**: Kurslar, laboratoriyalar və administrativ xidmətlər üzrə fəaliyyətlər planlaşdırılmış hədəflərlə müqayisə edilir.
- **Daxili və xarici tədarükçü qiymətləndirilməsi**: Təchizatçı və tərəfdaş universitetlərin xidmət keyfiyyəti dəyərləndirilir.

**Daxili Yoxlamalar**
Universitetdə daxili auditlər il ərzində ən azı bir dəfə olmaqla planlaşdırılır. Əsas məqsəd:
- Keyfiyyət standartlarına uyğunluğun yoxlanılması;
- Uyğunsuzluqların müəyyən edilməsi və aradan qaldırılması;
- Akademik və inzibati personalın keyfiyyət proseslərinə uyğun fəaliyyət göstərməsinin təmin edilməsi.

Yoxlama nəticələri rəhbərliyə təqdim edilir və zəruri düzəldici tədbirlər həyata keçirilir.

**Rəhbərlik tərəfindən analiz və qərarlar**
Universitet rəhbərliyi ildə ən azı bir dəfə olmaqla KİS-in effektivliyini və inkişafını qiymətləndirir. Bu prosesdə aşağıdakı mənbələrdən istifadə edilir:

- Daxili auditlər və onların nəticələri;
- Düzəldici və önləyici fəaliyyətlər haqqında hesabatlar;
- Maraqlı tərəf məmnuniyyəti sorğuları və təkliflər;
- Keyfiyyət siyasəti və strateji hədəflər üzrə icra göstəriciləri.

Rəhbərlik tərəfindən aparılan təhlillər nəticəsində keyfiyyətin artırılması, resursların optimallaşdırılması və strateji inkişaf istiqamətləri müəyyən edilir.

# TƏKMİLLƏŞMƏ (AZTU KONTEKSTİNDƏ)

## *Ümumi müddəalar*

AzTU-da təhsil və idarəetmə proseslərinin keyfiyyətini artırmaq üçün sistematik təkmilləşmə yanaşması tətbiq olunur. Akademik və inzibati fəaliyyətlərdə arzuolunmayan halların öncədən müəyyən edilməsi və qarşısının alınması məqsədilə qabaqlayıcı tədbirlər görülür. Təkmilləşmə prosesi aşağıdakı elementlərə əsaslanır:

- **Strateji planlama və SWOT analizi**
- **Akademik və inzibati sorğuların nəticələrinin təhlili**
- **İdarə Heyətinin qərarlarının tətbiqi**
- **İSO və digər beynəlxalq keyfiyyət standartlarının tələblərinin icrası**

## *Uyğunsuzluqların idarə edilməsi və düzəldici fəaliyyətlər*

AzTU-da uyğunsuzluqların müəyyən edilməsi və aradan qaldırılması üçün aşağıdakı mexanizmlər tətbiq olunur:

- **Tələbə və müəllim rəy sorğuları**
- **Daxili və xarici audit hesabatları**
- **İdarəetmə və akademik fəaliyyətlə bağlı şikayət və təkliflərin qeydiyyatı**
- **Keyfiyyətin təminatı şöbəsi tərəfindən müntəzəm monitorinqlər**

Düzəldici və önləyici fəaliyyətlər aşağıdakı mərhələlərə bölünür:

1. Uyğunsuzluğun səbəblərinin təhlili
2. Düzəldici tədbirlərin işlənib hazırlanması və icrası
3. Səmərəliliyin qiymətləndirilməsi və hesabatlandırma
4. Uyğunsuzluqların təkrarlanmasının qarşısını almaq üçün uzunmüddətli strategiyalar

## *Davamlı təkmilləşmə*

AzTU-da davamlı inkişafı təmin etmək üçün əsas sahələr aşağıdakılardır:

- **Tədris metodlarının və proqramlarının yenilənməsi**
- **İnfrastruktur və texnoloji avadanlıqların modernləşdirilməsi**
- **Akademik heyətin peşəkar inkişafı üçün təlim və sertifikatlaşdırma proqramlarının təşkili**
- **Daxili və xarici reytinqlərin təhlili və göstəricilərin optimallaşdırılması**

## *Davamlı təkmilləşmə və sistemli inkişaf*

AzTU-da keyfiyyətin davamlı yüksəldilməsi aşağıdakı istiqamətlər üzrə həyata keçirilir:

- **Akademik və inzibati proseslərin təkmilləşdirilməsi**: Tədris metodlarının və proqramlarının yenilənməsi, rəqəmsal texnologiyaların tətbiqi, təhsil keyfiyyətinin artırılması.

- **İnfrastruktur və resursların modernləşdirilməsi**: Zəruri akademik və texniki resursların əldə olunması, təmir və əvəzlənməsi, müasir laboratoriya və avadanlıqlarla təminat.
- **Peşəkar inkişaf və kadr potensialının artırılması**: Müəllim və inzibati heyətin bilik və bacarıqlarının artırılması üçün təlim, sertifikat və beynəlxalq proqramlara qoşulma.
- **Monitorinq və keyfiyyətin idarə edilməsi**: Daxili və xarici reytinqlərin təhlili, sorğular və auditlər əsasında keyfiyyət göstəricilərinin optimallaşdırılması.

## Keyfiyyət Təminatı Alətləri və İdarəetmə Mexanizmləri

1. **Benchmarking (Bənzətmə)**
   - **Tərif və Əhəmiyyət**: Benchmarking, universitetlərin və ya təhsil proqramlarının verilən bir standart və ya başqa bir oxşar qurumla müqayisə edilməsini əhatə edir. Bu proses universitetin mövcud fəaliyyətini təkmilləşdirmək üçün ən yaxşı təcrübələri və performans göstəricilərini müəyyən etməyə kömək edir.
   - **İstifadəsi**: Universitetlər arasında fəaliyyət müqayisəsi apararaq strateji qərarlar verməyə və təkmilləşdirmə sahələrini müəyyən etməyə kömək edir.
2. **Diplom Əlavəsi**
   - **Tərif**: Diplom əlavəçi, ali təhsil kvalifikasiyasına əlavə olunan və sahibinin təhsil səviyyəsini və məzmununu təsvir edən bir sənəddir.
   - **Əhəmiyyəti**: Təhsilin şərh edilməsini və beynəlxalq səviyyədə tanınmasını asanlaşdırır.
   - **“Diplom Əlavəsi”** nümunə sənədi
3. **ECTS – AKTS (Avropa Kredit Transferi Sistemi)**
   - **Tərif**: Avropa Kredit Transferi Sistemi, öyrənmə və qiymətləndirmə proseslərini şəffaflaşdırmağa və təhsil kreditlərinin köçürülməsini asanlaşdırmağa kömək edən bir sistemdir.
   - **Əhəmiyyəti**: Təhsil proqramlarının müqayisə edilməsini, qəbul edilməsini və tanınmasını təmin edir.
   - **Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində kredit sistemi ilə tədrisin təşkili Qaydaları**
   - **“Təhsil haqqında” Azərbaycan Respublikasının Qanunu**
4. **Əsas Performans Göstəriciləri (KPI)**
   - **Tərif**: KPI, universitetin və ya təhsil proqramının uğurlarını ölçmək üçün istifadə olunan müəyyənləşdirilmiş göstəricilərdir. Bu göstəricilər strateji məqsədlərə çatmağı qiymətləndirir.
   - **İstifadəsi**: Universitetin məqsəd və nəticələrinə uyğun strategiyaların qiymətləndirilməsi üçün kritik alət rolunu oynayır.
5. **Təlim Nəticələri**
   - **Tərif**: Təlim nəticələri, bir tələbənin təhsil müddətində qazandığı bilikləri, bacarıqları və anlayışları göstərən ifadələrdir.
   - **Əhəmiyyəti**: Kvalifikasiyaların və təhsil proqramlarının dəyərləndirilməsində ortaq bir dil təmin edir, həmçinin işəgötürənlər və təhsil müəssisələri üçün aydınlıq yaradır.
6. **Kvalifikasiya Çərçivələri**
   - **Tərif**: Kvalifikasiya çərçivələri, biliklərin və bacarıqların müəyyən bir təhsil səviyyəsi üzrə necə inkişaf etdirilməli olduğunu və necə təsnif ediləcəyini göstərir.
   - **Əhəmiyyəti**: Qlobal səviyyədə kvalifikasiyaların tanınmasını asanlaşdırır və yerli bazarda təhsil verilən sahənin uyğunluğunu təmin edir.
   - **Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi**
7. **Reytinqlər**
   - **Tərif**: Reytinqlər, universitetin müxtəlif fəaliyyət sahələrindəki göstəricilərinə əsaslanaraq, onun performansını sıralayan və təqdim edən bir alətdir.

- **Əhəmiyyəti**: Universitetin beynəlxalq mövqeyini göstərən və həmçinin təhsil keyfiyyətinin ölçülməsi üçün mühüm bir vasitədir.

## AzTU ÜÇÜN XÜSUSİ KEYFİYYƏT TƏMİNATI PLANI

Azərbaycan Texniki Universiteti (**AzTU**) ali təhsil sahəsində keyfiyyətin daimi təkmilləşdirilməsini prioritet olaraq qəbul edir. Bu keyfiyyət təminatı planı universitetin tədris, tədqiqat və idarəetmə proseslərinin beynəlxalq standartlara uyğun şəkildə qurulması və davam etdirməsini təmin etmək məqsədi daşıyır. Plan dörd əsas istiqamətdən ibarətdir: preventiv, detektiv, korrektiv və qiymətləndirici yanaşmalar.







Aşkar edilmiş uyğunluq pozuntularının düzəldici tədbirlərlə aradan qaldırılması.
Keyfiyyət problemlərinə dair rəhbərliyə hesabat verilməsi.
Uyğunluq pozuntularından öyrənərək yeni prosedurların yaradılması.
Mövcud problemlərin həll olunması və gələcəkdə bu problemlərin təkrarlanmasının qarşısının alınması.
Korrektiv yanaşma (Corrective)


Qiymətləndirici yanaşma
(Assesment)
Proseslərin sümərəliliyinin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müyən edilməsi.
Kənardan mütəxəssis qiymətləndirilməsi (benchmarking).
KPI-ların (Əsas Performans Göstəriciləri) izlənməsi və hesabatlılıq.
Strateji planın icra gedişinin monitorinqi və qiymətləndirilməsi.

## Keyfiyyət Mədəniyyəti




Keyfiyyət Mədəniyyəti bir müəssisə daxilində mükəmməllik və davamlı inkişafın önəmini vurğulayan ortaq dəyərlər, münasibətlər və təcrübələrdən ibarətdir. Ali təhsil konstekstində isə bu bütün struktur bölmələr, təhsilverənlər və təhsilalanların birgə fəaliyyəti nəticəsində dəstəkləyici bir mühitin formalaşmasını nəzərdə tutur.

Keyfiyyət mədəniyyətinin formalaşdırılması və saxlanılması uzunmüddətli uğur baxımından önəmli olmaqla, ali təhsil müəssisələrinin sistem, struktur və siyasətlərində dəyişikliklərin edilməsinin əsasını qoyur.

**Keyfiyyət Mədəniyyətinin Formalaşdırılması Prosesi**

| Mərhələ | Məqsəd |
|---|---|
| **1. Dəyişiklik ehtiyacının müəyyən edilməsi** | Tələb olunan daxili və xarici mühit amillərini dəqiqləşdirmək. |
| **2. Mövcud təşkilati mədəniyyətin qiymətləndirilməsi** | Mövcud təşkilati mədəniyyətin xüsusiyyətləri təhlil edilərək saxlanılmalı və ya yenilənməli olan təşkilati dəyərlər, inamlar və normaları müəyyən etmək. |
| **3. Hədəflənən mədəniyyətin müəyyən edilməsi** | Mövcud və hədəflənən (planlaşdırılan) təşkilati mədəniyyət arasındakı boşluqlar aradan qaldırılaraq yeni mədəniyyət üçün təşkilati strategiya və dəyərlərə uyğun bir çərçivə yaratmaq. |
| **4. Yeni mədəniyyətin təşkilat daxilində paylaşılması** | Maraqlı tərəfləri  hədəflənən keyfiyyət mədəniyyəti barədə aydın və anlaşıqlı şəkildə məlumatlandırmaq |

# Keyfiyyət Mədəniyyəti




## Keyfiyyət Mədəniyyətinin Əsas Prinsipləri

### *Şəffaflıq*

Keyfiyyət təminatının bütün mərhələlərində məlumat əldə etmək və bütün maraqlı tərəflərin fikirlərini nəzərə alaraq idarəetmə proseslərini şəffaf qurmaq.

### *Hesabatlılıq*

İctimaiyyətə və bütün maraqlı tərəflərə ali təhsil müəssisəsinin fəaliyyəti və nəticələri haqqında mütəmadi olaraq məlumat təqdim etmək.

### *Ortaq Dəyərlərə Malik Olma*

Ali təhsil müəssisəsinin missiyası və strategiyasından irəli gələn dəyərləri bütün struktur səviyyələrində yaymaq və yaşatmaq.

### *Dayanıqlı İnkişaf*

Tədris və xidmət proseslərini davamlı inkişaf prinsipi ilə qurmaq və bu istiqamətdə fəaliyyət göstərmək.

### *İnklüzivlik*

Bütün maraqlı tərəflərin keyfiyyətlə bağlı qərarlarda və fəaliyyətlərin icra prosesində bərabər iştirakını təmin etmək.

### 💹 *Qiymətləndirmə və Dəyərləndirmə*

Keyfiyyət məqsədlərinə çatmaq üçün müxtəlif metodlar vasitəsilə qiymətləndirmənin aparılması və müvəffəqiyyətli davranışın motivləşdirmək.

### ☺ *Maraqlı Tərəflərin Məmnunluğu*

Tələbələr və digər maraqlı tərəflərin ehtiyaclarını qarşılamaqla yanaşı, ümumi fəaliyyət məmnunluğunu artırmaq və onu davamlı şəkildə izləmək.

### 📡 *Kommunikasiya*

Maraqlı tərəflər arasında keyfiyyətli ünsiyyətin qurulması, məlumat mübadiləsinin təşviqi və qərar qəbul proseslərinin effektivliyini artırmaq.

### 🔗 *Birgə Öhdəlik*

Ali təhsil müəssisəsinin missiya və hədəflərinə çatmaq üçün bütün tərəflərin birlikdə məsuliyyət daşımasını təmin etmək və onların aktiv iştirakını dəstəkləmək.

### 📋 *Anket/Sorğular*

Keyfiyyətin davamlı təkmilləşdirilməsi məqsədilə maraqlı tərəflərdən mütəmadi olaraq rəy və təkliflərin toplanmasını təşkil etmək.

### 💬 *Rəylər*

Maraqlı tərəflərin fikirlərini dinləmək, onların tövsiyələrini nəzərə almaq və keyfiyyət proseslərini bu fikirlərə əsaslanaraq inkişaf etdirmək.

# GZİT (SWOT) analizi və Risk dəyərləndirməsi

**a) GZİT (SWOT) analizi**

| S | W | O | T |
|---|---|---|---|
| **Güclü Tərəflər (Strengths)** | **Zəif Tərəflər (Weaknesses)** | **İmkanlar (Opportunities)** | **Təhlükələr (Threats)** |
| • Müxtəlif beynəlxalq keyfiyyət təminatı standartlarına uyğun siyasətlərin mövcudluğu.<br>• AzTU-nun tədris və idarəetmə sistemlərində mütəmadi monitorinq və qiymətləndirmə.<br>• Universitetin müxtəlif sahələrdə beynəlxalq əməkdaşlıq və əlaqələrinin genişlənməsi.<br>• İntellektual və texnoloji infrastrukturun gücləndirilməsi üçün planların olması. | • Resurs çatışmazlığı (maliyyə, kadr və texnoloji infrastruktur).<br>• Tədris keyfiyyətinin bəzən yoxlanılmasında qeyri-obyektivlik riski.<br>• Tələbə və müəllim məmnuniyyətinin ölçülməsi prosesində bəzi boşluqlar.<br>• Əsas fəaliyyət sahələrində koordinasiyanın bəzən yetərsizliyi.<br>• Şöbənin bəzi əməliyyatlarının idarə edilməsi ilə bağlı məlumat boşluqları. | • Yeni texnologiyaların tətbiqi ilə tədris və qiymətləndirmə sistemlərinin təkmilləşdirilməsi.<br>• AzTU-nun beynəlxalq əlaqələrini artıraraq qlobal təhsil standartlarına uyğunlaşması.<br>• Tələbə məmnuniyyətini artırmaq üçün yeni geri bildirim mexanizmlərinin tətbiqi.<br>• Keyfiyyət təminatında müstəqil audit və qiymətləndirmə prosedurlarının genişlənməsi.<br>• Yeni tədris proqramlarının yaradılması və beynəlxalq akkreditasiyaların alınması. | • Bütün təhsil sahələrində artan beynəlxalq rəqabət və digər universitetlərin təklif etdiyi imkanlar.<br>• İqtisadi çətinliklər və resurs çatışmazlığı nəticəsində keyfiyyət təminatı fəaliyyətlərinin zəifləməsi.<br>• Təhsil sahəsində artan müasir trendlərə uyğunlaşmada çətinliklər.<br>• Ətraf mühitdəki fövqəladə hallar (məsələn, pandemiya) təhsil proseslərinə mənfi təsir göstərə bilər.<br>• Tələbə və işçi qüvvəsinin müxtəlif sosial və iqtisadi vəziyyətləri ilə əlaqədar çətinliklər. |

**b) Risk dəyərləndirməsi**

| Risk | İdarəetmə Yöntəmləri | Ehtimal Səviyyəsi | Risk göstəricisi (1-5) |
|---|---|---|---|
| **Tədris Keyfiyyətinin Aşağı Olması** | Tədris proqramlarının qiymətləndirilməsi, müəllimlərin peşəkar inkişafı | Orta | 3 |
| **Təhsil İnfrastrukturunun Yetərsizliyi** | Avadanlıq və infrastrukturun yenilənməsi, tələbələrə uyğun şəraitin təmin edilməsi | Orta-yüksək | 4 |
| **İnformasiya Texnologiyaları (İT) Təhlükəsizlik Riskləri** | Məlumat təhlükəsizliyi tədbirləri, mütəmadi auditlər | Yüksək | 5 |
| **Qiymətləndirmə və Ədalətsizlik** | Şəffaf qiymətləndirmə siyasəti, müstəqil audit və geri bildirim mexanizmləri | Orta | 3 |
| **İnkişaf və Yenilik İdarəetməsinin Çətinliyi** | Strateji planlaşdırma, mütəmadi monitorinq və daxili idarəetmə | Orta | 3 |
| **Beynəlxalq Əlaqələr və İştirakın Azalması** | Yeni beynəlxalq əlaqələr qurulması, tərəfdaşlıqların gücləndirilməsi | Orta | 3 |
| **Tələbə Məmnuniyyəti və İştirak Azalması** | Tələbə məmnuniyyətinin ölçülməsi, geri bildirim sistemlərinin gücləndirilməsi | Orta | 3 |
| **Tədqiqatların Keyfiyyəti və Maliyyə Dəstəyi** | Tədqiqat resurslarının artırılması, maliyyə idarəetməsi və dəstək proqramları | Orta-yüksək | 4 |
| **Akkreditasiya və Uyğunluq Riskləri** | Akkreditasiya tələblərinin izlənməsi, daxili audit və uyğunluq yoxlamaları | Aşağı | 2 |
| **Müəllim və Tələbə Əlaqələrinin Zəifliyi** | Müəllimlər üçün mentorluq proqramları, tələbələr üçün aktiv geribildirim sessiyaları | Orta | 3 |
| **Büdcə Azalması və Maliyyə Çətinlikləri** | Daha geniş maliyyə mənbələrinin tapılması, mütəmadi büdcə nəzərdən keçirmələri | Yüksək | 4 |
| **Tələbə Geri Dönüşlərinin Əksikliyi** | Davamlı tələbə sorğuları və fokus qrupları təşkil etmək | Orta | 3 |
| **Karyera İmkanlarının Azalması** | Karyera xidmətlərinin gücləndirilməsi, işəgötürənlərlə əlaqələrin artırılması | Orta | 3 |

| | | | |
|---|---|---|---|
| **Qlobal Təhsil Standartlarına Uyğunsuzluq** | Beynəlxalq akkreditasiya proseslərinə daxil olmaq, tədris proqramlarının yenilənməsi | Yüksək | 4 |
| **Tədqiqatların Maliyyə Dəstəyi Əskikliyi** | Dövlət və özəl sektorla əməkdaşlıq, tədqiqat fondlarının artırılması | Orta-yüksək | 4 |
| **Təhsil Texnologiyalarının İnkişafının Ləngiməsi** | İT infrastrukturu və online tədris imkanlarının inkişafı | Yüksək | 4 |
| **Ətraf Mühit və Sosial Məsuliyyət Riskləri** | Yaşıl siyasətlərin tətbiqi, sosial məsuliyyət proqramlarının genişləndirilməsi | Orta | 3 |
| **İnsan Resursları Problemləri** | Müəllim və işçilər üçün inkişaf proqramları, mükafatlandırma və stimullaşdırma strategiyaları | Orta | 3 |
| **Təhsil Verənlər Arasında Fərqli Tədris Yanaşmaları** | Tədris metodlarının və müntəzəm təlim proqramlarının standartlaşdırılması | Orta | 3 |

- **Aşağı Risk (1-2 bal)** — Az təsirli, nəzarət altında olan risklər.
- **Orta Risk (3 bal)** — Nəzarət edilməzsə təsiri ola biləcək risklər, davamlı monitorinq tələb edir.
- **Orta-Yüksək Risk (4 bal)** — Ciddi tədbirlər və strateji yanaşma tələb edən risklər.
- **Yüksək Risk (5 bal)** — Təcili tədbir və güclü nəzarət mexanizmləri tələb edən kritik risklər.

# Keyfiyyət Terminləri Cədvəli

| Termin | Təsviri |
|---|---|
| **Keyfiyyət** | Təhsil müəssisəsinin akademik, idarəetmə və xidmət sahələrində müəyyən olunmuş standartlara və gözləntilərə uyğunluq səviyyəsi |
| **Keyfiyyətə Nəzarət** | Məhsulun, xidmətin və ya prosesin müəyyən olunmuş standartlara uyğun olmasını təmin etmək üçün həyata keçirilən yoxlama və nəzarət prosesi |
| **Keyfiyyət Təminatı** | Müəssisə və ya təşkilat daxilində keyfiyyətin planlaşdırılması, idarə olunması və davamlı inkişafını təmin edən sistematik yanaşmalar və prosedurlar toplusu |
| **Keyfiyyət Mədəniyyəti** | Bir müəssisə daxilində mükəmməllik və davamlı inkişafın önəmini vurğulayan ortaq dəyərlər, münasibətlər və təcrübələr toplusu |
| **Daxili Qiymətləndirmə** | Təhsil müəssisəsinin öz fəaliyyətlərini qiymətləndirmək və inkişaf etdirmək üçün həyata keçirdiyi sistemli özünütəhlil prosesi |
| **Xarici Qiymətləndirmə** | Müstəqil ekspertlərin və ya təşkilatların təhsil müəssisələrinin fəaliyyətlərini və keyfiyyət səviyyəsini qiymətləndirməsi prosesi |
| **Akkreditasiya** | Təhsil proqramlarının və təşkilatların keyfiyyətinin müstəqil ekspertlər tərəfindən qiymətləndirilməsi və tanınması prosesi |
| **Daxili Keyfiyyət Təminatı (DKT)** | Təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunu, müasir tələblərə cavab verən tədris mühitinin yaradılmasını və fəaliyyətin özünütəhlil əsasında davamlı inkişafını təmin edən daxili idarəetmə və qiymətləndirmə sistemi |
| **Xarici Keyfiyyət Təminatı (XKT)** | Müstəqil qurumlar tərəfindən təhsil müəssisələrinin keyfiyyətini qiymətləndirmək, akkreditasiya proseslərini həyata keçirmək və keyfiyyətin təmin olunmasını izləmək üçün aparılan prosedurlar |
| **Keyfiyyətin Təmin Olunması** | Milli və ya institusional səviyyədə qəbul olunmuş proses və ya proseslər toplusudur; keyfiyyətin qorunması və artırılmasına yönəlmiş fəaliyyətlərdən ibarətdir |
| **Keyfiyyət Standartları** | Təhsil müəssisələrinin fəaliyyətini istiqamətləndirən, keyfiyyət göstəricilərini müəyyən edən və tədrisin keyfiyyətini yüksəltməyə xidmət edən normativ tələblər və göstəricilər |
| **Monitorinq və Qiymətləndirmə** | Təhsil prosesinin və keyfiyyət təminatı mexanizmlərinin davamlı şəkildə izlənilməsi, təhlil edilməsi və inkişaf istiqamətlərinin müəyyən olunması prosesi |

| | |
|---|---|
| **Benchmarking** | Bir müəssisənin fəaliyyətini, göstəricilərini və proseslərini qabaqcıl təcrübələr və beynəlxalq standartlarla müqayisə edərək inkişaf istiqamətlərini müəyyən etmə prosesi |
| **Keyfiyyət İdarəetmə Sistemi (QMS)** | Bir təşkilatın məhsul və xidmətlərinin keyfiyyətini planlaşdırmaq, nəzarət etmək və davamlı inkişaf etdirmək üçün istifadə etdiyi proseslər və prosedurlar toplusu |
| **Keyfiyyət Dəyərləndirməsi** | Təhsil müəssisəsinin fəaliyyətinin və xidmətlərinin müəyyən olunmuş standartlara uyğunluğunu təhlil edən və qiymətləndirən proses |
| **Risklərin İdarə Edilməsi** | Keyfiyyətə təsir edə biləcək potensial risklərin müəyyən edilməsi, qiymətləndirilməsi və azaldılması üçün həyata keçirilən strategiyalar |
| **Özünütəhlil** | Təhsil müəssisəsinin və ya fakültənin öz fəaliyyətini obyektiv dəyərləndirərək keyfiyyətini artırmaq üçün istifadə etdiyi metod |
| **Davamlı Təkmilləşdirmə** | Keyfiyyətin yüksəldilməsi və inkişaf etdirilməsi üçün mütəmadi olaraq həyata keçirilən fəaliyyətlər |
| **Strateji Keyfiyyət Planlaması** | Universitetin uzunmüddətli keyfiyyət strategiyasını müəyyən etmək üçün tətbiq olunan yanaşmalar və proseslər |
| **Tələbə Məmnuniyyəti** | Təhsil müəssisəsinin tələbələrə təqdim etdiyi tədris və xidmətlərin onların gözləntilərinə və ehtiyaclarına nə dərəcədə uyğun olmasını ölçən indikator |
| **İnnovativ Tədris və Qiymətləndirmə Metodları** | Tədris və öyrənmə prosesini effektivləşdirmək üçün tətbiq olunan müasir və texnoloji yanaşmalar |
| **Daxili Audit** | Təhsil müəssisəsinin fəaliyyətlərinin daxili nəzarət və təhlil edilməsi prosesi |
| **Xarici Audit** | Müstəqil qurumlar tərəfindən universitet və ya fakültələrin keyfiyyətinin qiymətləndirilməsi |
| **Keyfiyyət Göstəriciləri (KPIs)** | Təhsil müəssisəsinin fəaliyyətinin effektivliyini ölçmək üçün istifadə olunan əsas göstəricilər |
| **Müqayisəli Təhlil (Comparative Analysis)** | Bir universitetin və ya proqramın digər oxşar müəssisələrlə müqayisə edilməsi və inkişaf üçün yeni imkanların müəyyən olunması prosesi |

| | |
|---|---|
| **Universitet** | Azərbaycan Texniki Universiteti |
| **Şöbə** | Keyfiyyətin Təminatı şöbəsi |
| **Sənədin adı** | Keyfiyyət Təminatı Bələdçisi |
| **Nömrəsi** | AZTU-KT-B-0-004 |
| **Təsdiq tarixi** | 27.01.2025 |
| **Reviziya tarixi və nömrəsi** | 00 |